## YUNESKO-NUN BİOSFER QORUQ ƏRAZİLƏRİ

**Fərhatlı C.V.**

*Bakı Dövlət Universiteti*

*cavidsamir644@gmail.com*

Dünyada YUNESKO-nun 700-dən çox biosfer qoruq əraziləri Almaniyadakı Qara Meşə və Vadden dənizindən Monqolustanda Qobi səhrasına, ABŞ-dakı Yellowstone Milli Parkına qədərdir. Regionların yalnız təbiəti mühafizə zonaları kimi müəyyən edilməsi qeyri-kafi tərifdir: bu ərazilərin hər şeydən əvvəl dayanıqlı inkişaf üçün nümunəvi region olması tələb olunur. YUNESKO-nun Almaniya Komissiyasının bəyanatına görə, "Biosfer qoruq əraziləri paradiqma dəyişikliyini təmsil edir: təbiətin insanlar tərəfindən və insanlar vasitəsilə qorunması".

Hazırda dünyada 131 ölkədə 727 YUNESKO-nun biosfer qoruq ərazisi var, onlardan 16-sı Almaniyadadır. Almaniyadakı bölgələr Federal Respublikasının ümumi ərazisinin təxminən üç faizini təşkil edir. Bölgələr, beş əyalətə uzanan Elbe çayı hövzəsi, Franko-Alman biosfer qoruğu, Pfalz Meşəsi-Nordvogesen və Rhön kimi müxtəlif ərazilərlə çox dəyişir. Almaniyanın ən tanınan biosfer qoruq ərazisi davamlı inkişaf üçün model xarakteri ilə seçilən Mittelgebirge Dağları bölgəsidir. Eyni zamanda biosfer qoruqlarının dünya dövlətlərinin ərazilərində təşkil olunması məsələsi araşdırılmaqla yanaşı, bu sahədə ABŞ 42 biosfer qoruğu ilə birinci yeri tutur. Bolqaristan 17, Böyük Britaniya 13, Avstraliya 12, İran 9, İspaniya 8, SSRİ-7 və s. biosfer qoruğuna sahib olmuşlar.

Bu təbii ərazilərin özünəməxsus xüsusiyyətləri olan digər mühüm cəhəti də bu ərazilərdəki insanlarla ətraf mühit arasındakı əlaqədir. UNESCO davamlı inkişaf üçün müvafiq regionlarda yaşayan insanların dəstəyinə böyük əhəmiyyət verir.

İnsan və Biosfer (MAB) Proqramı insan və ətraf mühit arasındakı əlaqəni elmi əsaslarla qiymətləndirən hökumətlərarası elmi proqramdır. 1971-ci ildə YUNESKO-nun təşəbbüsü ilə irəli sürülən bu proqramın əsas məqsədi insanlar arasında davamlı və balanslaşdırılmış münasibətlərin qurulması və təbii sərvətlərdən istifadə edilməsidir. Bu məqsədlə hazırlanmış Biosfer Qoruqları və Ümumdünya Biosfer Qoruğu Şəbəkəsi bu proqramın əsas icra alətləridir.

Proqramın idarə edilməsi MAB Beynəlxalq Əlaqələndirmə Şurası (ICC) vasitəsilə həyata keçirilir. Şura üzvləri YUNESKO-nun iki ildən bir keçirilən Baş Konfransları tərəfindən seçilir. MAB Beynəlxalq Koordinasiya Şurasına 34 üzv dövlət daxildir.

Biosfer qoruqlarının məqsəd və vəzifələri çox müxtəlif olmaqla yanaşı, ən vacib məsələlərini: ətraf mühiti təmsil edən nadir flora və fauna növlərinin mühafizəsi; müşahidəni elmi tədqiqat işləri ilə təbii şəraitdən aparmaq;

antropogen faktorların təbii ekosistemə təsirini öyrənməkdən və ixtisasçıların hazırlanması və maariflənməsindən ibarəttir.

Bütün dünyada olduğu kimi ölkəmizdə də biosfer qoruqları mühafizə məsələsində xüsusi rol oynamalıdır və bu ideya Respublika Dövlət Təbiəti Mühafizə komitəsinin MAB proqramının 8N-li proyektinin 8a bəndinə uyğun olaraq ölkəmizin təbiətinin qorunması işinə yönəlməlidir. Tədqiqatlara əsasən YUNESKO-nun beynəlxalq proqramının tələblərinə uyğun olaraq, ölkəmizdə Qızılağac Dövlət qoruğunda köçəri su və bataqlıq quşlarının, Zaqatala Dövlət Qoruğunda isə dağ flora və faunasını yaxşı mühafizə etmək və onların ekoloji şəraitini yaxşılaşdırmaq üçün həmin ərazilərdə yeni qoruq növü – biosfer qoruğu və ya kompleks biosfer qoruğu yaratmaq vacib məsələdir.